İPƏK YOLU, No.1, 2018, səh.82-87

# YERLİ MƏHSULLARIN DÜNYA BAZARLARINA ÇIXARILMASI MÜHÜM SOSİAL-İQTİSADİ MƏSƏLƏ KİMİ

**Mətanət Dadaşova**

Azərbaycan Dövlət İqtısad Universiteti, Bakı, Azərbaycan
e-mail: dadashova64@mail.ru

**Xülasə**. Məqalədə göstərilir ki, dünya təsərrüfatının vahid bazar şəklində formalaşması ölkələrin və regionların daha da səmərəli iqtisadi fəaliyyət göstərmələrini tələb edir. Məqalədə qeyd edilir ki, yerli məhsulların keyfiyyətinin dünya standartlarına uyğun gəlməsi və dünya bazarlarına çıxarılması ən mühüm sosial-iqtisadi məsələ səviyyəsinə qaldırılır.

**Açar sözlər**: dünya standartlı məhsullar, Transmilli korporasiya, sosial-iqtisadi, dünya bazarı, region, rəqabətqabiliyyətlilik.

## SUPPLY OF DOMESTIC PRODUCTS ON WORLD MARKETS AS AN IMPORTANT SOCIO-ECONOMIC PROBLEM

**Matanat Dadashova**
*Azerbaijan State University of Economics, Baku, Azerbaijan*

**Abstract.** In article shows that, formation of world economy in a form of common market in its turn requires more productive economics activity of countries and regions. Therefore globalization makes the conformity of products quality with international standards and their export the most important social and economic issue.
**Keywords:** world standard products, trans- national corporations, social and economic, world market, region, competitiveness.

## ЭКСПОРТ ОТЕЧЕСТВЕННОЙ ПРОДУКЦИИ НА МИРОВЫЕ РЫНКИ КАК ВАЖНАЯ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ ПРОБЛЕМА

**Матанат Дадашова**
*Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан*

**Резюме**. В статье рассматривается формирование мировой экономики в виде единого рынка, которое в свою очередь требует более эффективных действий стран и регионов. Показывается, что соответствие качества отечественных продуктов мировому стандарту и их экспорт является важной социально-экономической задачей.
**Ключевые слова:** продукты мирового стандарта,транснациональная корпорация, социально-экономический, мировой рынок, регион, конкурентоспособность.

Məlumdur ki, ölkəmiz bazar iqtisadiyyatı şəraitində inkişaf edir və onun iqtisadi idarəetmə sistemi istehsal amillərindən səmərəli istifadəni təmin edən mexanizm kimi xarakterizə olunur.

Təcrübə göstərir ki, müəyyən zaman kəsiyindən sonra, iqtisadi idarəetmə sisteminin tətbiqi ilə formalaşmış, dövrünün tələbatını doğrultmuş iqtisadiyyatın da belə tarazlığı pozulur. Bu baxımdan, davamlı iqtisadi tarazlığın dayanıqlığının təmin olunması dövlətin sosial-iqtisadi siyasətinin ən mühüm istiqamətlərindəndir.

Müasir dövrdə davamlı iqtisadi artımın təmin olunması makroiqtisadi məqsəd kimi nəzərə alınır. İqtisadi artım insanların həyat səviyyəsinin yüksəlməsinə təsir edən ən mühüm

amildir. Yəni, artan iqtisadiyyat hər şeydən əvvəl məhsulun artımı ilə şərtlənir ki, bu da öz növbəsində istər ölkə daxilində, istərsə də beynəlxalq miqyasda sosial-iqtisadi xarakterli problemləri həll etməyə, eyni zamanda insanların tələbatını daha dolğun ödəməyə imkan verir.

Ölkə iqtisadiyyatının inkişafının mühüm şərtlərindən olan yerli xammal və məhsulların dünya bazarlarına çıxarılması müasir dövrün əsas məsələlərindəndir. Ölkəmizə valyuta axınının cəlb edilməsi, iqtisadiyyatın inkişaf xəttinin əsas istiqamətlərindəndir və bu istiqamətdə mühüm işlər həyata keçirilir.

Müasir dövrdə dünya təsərrüfatı vahid bazar şəklində formalaşmışdır. Bu formalaşma ölkə iqtisadiyyatının dinamik inkişafını tələb edir. İlk növbədə tələb olunur ki, vahid dünya bazarına çıxarılan məhsulların keyfiyyəti yüksək olsun və onlar rəqabətə davam gətirə bilsinlər. Buna görə də müasir təsərrüfatçılıqda məhsulların keyfiyyətinin dünya standartlarına uyğun gəlməsi ən mühüm sosial-iqtisadi məsələ səviyyəsinə qaldırılır. Lakin dünya üzrə bütün regionlar və yaxud da regionda fəaliyyət göstərən inteqrallaşmış qurumlar bunun öhdəsindən eyni səviyyədə gələ bilmirlər.

Qloballaşma həm milli məhsulların və həm də bu ölkənin yerləşdiyi regionda istehsal edilən məhsulların keyfiyyətli buraxılmasına müsbət təsir göstərir. Qloballaşmanın zəif olduğu vaxtlar milli məhsulların xarici bazarlara çıxarılması zamanı müxtəlif ölkə şirkətlərinin maraqları daha kəskin şəkildə toqquşurdu. Hər bir ölkə keyfiyyətli məhsul istehsal etməyin yollarını gizli saxlamağa meylli olurdu. Qloballaşma isə məhsulun keyfiyyətinin yüksəlməsini regionun ümumi məsələsinə çevirir və buna görə də qonşu ölkələrin hamısında rəqabət qabiliyyətli məhsul istehsal edilməsi üçün şərait yaranması imkanı meydana gəlir [1, s.91].

Əvvəlcə gəlin, inkişaf etmiş ölkələrin dünya bazarlarında formalaşmış təcrübəsinə nəzər salaq. Məhsulların rəqabət qabiliyyətliyinin yüksəlməsində transmilli korporasiyalar (TMK) müsbət rol oynayırlar. Hazırda dünya TMK-lar üçün vahid bazara çevrilməkdədir. Bütün regionlar TMK-ın fəaliyyəti üçün açıqdır və onlar öz ölkələrində əldə olunan texniki, texnoloji, təşkilati yenilikləri rəhbər tutaraq yaxın və uzaq qonşu ölkələrdə dünya standartlarına uyğun sənaye və kənd təsərrüfatı məhsulları istehsal edirlər və bu məhsulları dünya bazarlarına çıxarırlar. Çoxlu miqdarda mənfəət əldə etmək üçün beynəlxalq əmtəə mübadiləsi dairəsində maraqların toqquşması baş verir. Burada müxtəlif regionların firmaları tərəfindən məhsulların ixracına və dünya bazarında reallaşdırılmasına birbaşa və yaxud da dolayısı ilə təsir göstərə bilən çoxsaylı amillərin olması meydana çıxır. Daha çox mənfəət götürmək üçün firmalar arasında rəqabət güclənir. Ölkələrin və regionların kapitalları arasında baş verən rəqabət dünya bazarında əmtəələrin özlərinin rəqabətinə çevrilir ki, burada da onların istehlak dəyəri və reallaşdırma şərtləri böyük rol oynayır. Bu cür məsələlərin həllinə qloballaşma kömək göstərir. Qloballaşmış qrumlara daxil olan ölkələrin firmaları arasında dərin və dayanıqlı istehsal-texniki əlaqələr mövcud olduğuna görə məhsulların keyfiyyəti və rəqabət qabiliyyətliyi qabaqcadan proqnozlaşdırılır və məqsədyönlü olaraq yüksəldilir.

Dünya bazarında müxtəlif ölkələrin və regionların milli və yerli kapitallarının toqquşması baş verə bilər. Burada söhbət bir ölkənin və yaxud da regionun daxilində fəaliyyət göstərən kompaniyaların əlində toplanmış kapitalın və istehsal potensialının digər ölkənin və yaxud da regionun kompaniyaları ilə rəqabət aparmaq qabiliyyətindən gedir. Proses düzgün idarə edildikdə regionda rəqabətqabiliyyətlilik müsbət istiqamətdə inkişaf edir.

TMK-lar ölkə və region məhsullarının rəqabətqabiliyyətliliyinə güclü təsir göstərirlər. TMK-nın ölkə və regionların təsərrüfat sistemində, həmçinin, milli və region məhsullarının rəqabət qabiliyyətliliyinin yüksəldilməsində tutduğu yer və oynadığı rol onların spesifik xüsusiyyətlərindən irəli gəlir. Belə xüsusiyyətlərdən biri TMK-nin fəaliyyətinin universal olmasıdır. TMK-lar həm ticarətçi, həm investor, həm də stimullaşdırıcı strukturlardır. Onlar keyfiyyətli məhsul istehsal etməyə, reallaşdırmağa, ticarətə nəzarət etməyə, dünya və region bazarlarına təsir göstərməyə qadirdirlər. Beynəlxaq səviyyədə fəalyyət dairəsinə malikdir. Onlar bir çox cəhətdən dünya bazarında əmtəələrin və xidmətlərin dinamikasını və strukturunu, onların rəqabətə dözümlüyünü təyin edirlər. Kapitalın beynəlxalq miqyasda hərəkətinə, biliyin və texnologiyanın ötürülməsinə güclü təsir göstərirlər. TMK-lar dünya iqtisadiyyatının vahid orqanizm kimi formalaşmasında və deməli qloballaşmanın sürətlənməsində mühüm rol oynayırlar. Müxtəlif ölkələrin müəssisələri arasında istehsal əlaqələrinin dərinləşməsində və genişlənməsində onların rolu getdikcə artır. Bu da həmin ölkələrin məhsullarının rəqabətqabiliyyətliliyini yüksəldir [1, s.86].

Məhsullarının rəqabətqabiliyyətliliyini yüksəltmək baxımından TMK-ın bir cəhəti də diqqəti cəlb edir. Bu strukturlar elmi, texniki və texnoloji yenilikləri qısa müddətdə istehsala tətbiq etməkdə, innovasiya mühitləri yaratmaqda, bütün səviyyələrdə bazarı öyrənməkdə, onların sektorlarını araşdırmaqda dünyada fəaliyyət göstərən ən qabaqcıl kompaniyalarla yarışa girə bilirlər və qalib gəlirlər. Ən əlamətdar cəhət ondadır ki, TMK-lar istehsalın səmərəliliyinə kompleks yanaşırlar və xüsusən istehsala sosial, iqtisadi və təşkilati cəhətlərinə çox fikir verirlər.

Hazırda dünyada qloballaşmanın təsiri altında keyfiyyətli məhsulları ilə fərqlənən bir sıra regionlar meydana gəlmişdir. Belə regionlardan Şimali Amerikanı, Qərbi Avropanı, Cənubi-Şərqi Asiyanı göstərmək olar. Bu regionların aparıcı ölkələri uzun illərdir ki, rəqabət qabiliyyətli məhsullar istehsal etməklə və onları dünya bazarlarında müvəffəqiyyətlə reallaşdırmaqla yaxşı imic formalaşdıra biliblər. Belə qabaqcıl ölkələrə ABŞ, Yaponiya, Almaniya kimi ölkələr parlaq misaldır. Bu ölkələrin təsiri altında müvafiq regionlar və regionun digər ölkələri də azad bazar iqtisadiyyatında rəqabət qabiliyyətini yüksəltməyə nail olmuşlar. Keçən əsrin əvvəllərində keyfiyyətli məhsullar istehsalı üzrə dünyanın güc mərkəzləri dedikdə ilk növbədə Amerika və Yaponiya başa düşülürdüsə, indi belə ölkələrin sayı çoxdur [1, s.76]. Arzu edərdik ki, gələcəkdə Azərebaycan Respublikası da elə ölkələr sırasında olsun.

Cənubi-Şərqi Asiya regionu timsalında, həmin region məhsullarının rəqabət qabiliyyətliliyinin yüksəlməsini aydın görmək olar. Bu regiona güclü müsbət təsir edən aparıcı dövlət Yaponiyadır. Məhsul və xidmətlərin yalnız yüksək keyfiyyətli olması ilə və demək olar ki, keyfiyyət sahəsində başqa inkişaf etmiş ölkələrə nisbətən üstünlük əldə edən Yaponiya özünün daxili "enerjilərindən" irəli gələn "cəhətləri" sayəsində fərqlənir. Əslində rəqabətdözümlü məhsul istehsal etmək və onu dünya bazarına çıxartmaq hökumətdən tutmuş firma və şirkətlərin adı işçilərinə qədər bütün yaponların və yapon dövlətinin sosial-iqtisadi inkişaf proqramlarının əsas mahiyyətini təşkil edir. Məsələyə bu cür yanaşmaqla Yaponiya böyük nailiyyətlər əldə etmişdir. Ümumiyyətlə götürdükdə dünyanın bütün ölkələri Yapon təcrübəsini öyrənməkdə maraqlıdırlar. Qonşu ölkələr hər vasitə ilə yüksək texnologiyaya, qabaqcıl təcrübəyə yiyələnmək üçün Yaponiyaya üz çevirirlər. Yaponiya və Asiya ölkələri arasında əhəmiyyətli ticarət bloku yaranmışdır. Bu blokun yaranmasının əsas məqsədi rəqabətə davam gətirən sənaye məhsulları istehsal etməkdir.

Bu gün texnologiya-xüsusi əmtəədir. Güclü və sərt rəqabət əsasında formalaşmış bazar iqtisadiyyatlı cəmiyyətdə texnologiyanı yaradan şəxslər meydana çıxartdıqları kəşflərdən və ixtiralardan istifadə edilməsi sahəsində inhisarçı hüquqa malik olurlar ki, bu hüququ da onlara xüsusi orqanlar tərəfindən verilmiş qoruyucu sənəd – patent təmin edir. Patent əldə edən müəssisələr texnoloji renta şəklində əlavə mənfəət qazanmaq imkanına malik olurlar. Beynəlxalq ticarətin mal dövriyyəsində yüksək texnoloji mürəkkəbliyi ilə fərqlənən məhsulların xüsusi çəkisi artır, dünya ticarəti mal dövriyyəsinin strukturunun təbii resurslara və ilkin məhsullara əsaslanan əmtəə mübadiləsinin xüsusi çəkisi isə getdikcə azalır.

Müstəqilliyinin hələ, iyirmi yeddinci ilini yaşayan respublikamızın məhsul istehsalı üzrə təcrübəli sayılan ölkələr sırasında olması üçün inkişafa aparan, yeni-yeni layihələrin işlənib həyata keçirilməsi vacibdir və bu, müasir dövrün əsas tələblərindəndir.

Məhsul istehsalında inkişaf etmiş ölkələrin və onların timsalında Yaponiyanın iqtisadiyyatının uğurlarından və təcrübəsindən istifadənin ölkəmizin iqtisadiyyatının inkişafında bacarıqla həyata keçirilməsi mühüm sosial-iqtisadi məsələ kimi işıqlandırılmalıdır.

Ölkəmizin beynəlxalq ticarət əlaqələri genişlənməkdədir. Baxmayaraq ki, ixrac olunmuş məhsulların strukturu əsasən təbii xammala əsaslanır, amma bu proses gələcəkdə yüksək iqtisadi inkişaf perspektivlərinə ümid verir. Azərbaycan Respublikasında 2015-ci ildə ixrac olunan mühüm növ məhsullara meyvə-tərəvəz, çay, kartof, bitki yağları, şəkər, meyvə və tərəvəz konservləri, şirələri, üzüm şərabı, tünd spirtli içkilər, tütün, xam neft, avtomobil benzini, kerosin, qazoyl, maye yanacağı, sürtkü yağları, neft koksu, təbii qaz, elektrik enerjisi, atsiklik spirtlər və onların törəmələri polietilen, qoyun və quzu dəriləri, pambıq lifi, pambıq parça ipliyi, qara metallardan yarımfabrikatlar, emal olunmamış alüminium aid edilmişdir [2, s.225].

İxrac etmək firmalara dünya standartları və keyfiyyət sertifikatları ilə tanış olmağa, istehsalın genişlənməsi hesabına əlavə mənfəət əldə etməyə, dünya bazarında rəqabət

aparmaq qabiliyyətini artırmağa imkan yaradır. Dünya standartına cavab verən əmtəələr üzrə dünya ölkələri ilə mübadiləyə girmək də hər iki tərəf üçün xeyirlidir və son nəticədə bu proses iqtisadi inkişaf üçün zəmin hazırlayır. Azərbaycan Respublikasının Statistika Komitəsinin son məlumatlarına görə 2015-ci ildə ölkəmizin digər ölkə qrupları və qitələr üzrə ixracı aşağıda verilmiş cədvəldə öz əksini tapmışdır [2, s.217].

**Cədvəl 1.** Azərbaycan Respublikasının Statistika Komitəsinin məlumatlarına görə 2015-ci ildə ölkəmizin digər ölkə qrupları və qitələr üzrə ixracı

| Ölkə qrupları və qitələr | İxrac | |
|---|---|---|
| | Min ABŞ dol. | Xüsusi çəkisi %-lə |
| Müstəqil Dövlətlər Birliyi (MDB) | 525389,9 | 4,6 |
| Avropa İttifaqı (Aİ) | 6751671,8 | 59,1 |
| Qara Dəniz İqtisadi Əməkdaşlıq təşk. (QDİƏT) | 1341170,3 | 11,7 |
| İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) | 620999,3 | 5,4 |
| Demokratiya və İqtisadi İnkişaf uğrunda təşkilat (GUAM) | 389879,4 | 3,4 |
| Neft ixrac edən ölkələrin Təşkilatı (OPEK) | 228345,1 | 2,0 |
| İslam Konfransı Təşkilatı (İKT) | 1608552,5 | 14,1 |
| Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatı (ASİƏT) | 1898588,5 | 16,6 |
| Avropa Azad Ticarət Assosiasiyası (AATA) | 97953,9 | 0,9 |
| Cənub-Şərqi Asiya Dövlətlərinin Assosiasiyası (ASEAN) | 752589,4 | 6,6 |
| İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) | 7280341,9 | 63,7 |
| Avropa | 7384017,0 | 64,6 |
| Asiya | 3184053,0 | 27,9 |
| Amerika | 561912,9 | 4,9 |
| Afrika | 293872,5 | 2,6 |
| Okeaniya | 621,9 | 0,0 |

Azərbaycanın və digər MDB məkanına daxil olan ölkələrin iqtisadi inkişafının xammal xarakteri, emal sənayesinin kifayət qədər inkişaf etməməsi, qeyri-xammal sektoruna sərmayə həcminin kifayət qədər olmaması, milli iqtisadiyyatı zəiflədir və onu kənar amillərdən asılı edir.

Eyni zamanda, bir sıra ölkələrin (ABŞ, Rusiya, İran, Türkiyə və s.) Azərbaycanda öz maraqları mövcuddur. Bu isə əsasən ölkənin neft-qaz ehtiyatları, geosiyasi vəziyyəti və s. ilə əlaqədardır. Azərbaycan Cənubi Qafqazda müəyyən üstün imkanlara malikdir. Əlbəttə ki, bu ilk növbədə ölkənin neft-qaz resursları ilə baglıdır.

Ümid edirik ki, ölkəmizdə regionların sosial-iqtisadi inkişafında aparılan islahatlar nəticəsində gələcəkdə "Azərbaycan malı" adı altında yüksək rəqabət qabiliyyətli, müxtəlif, yeni adda, geniş çeşiddə, dünya standartlı məhsulların həcmi artırılacaq və sosial-iqtisadi inkişafın sürətlənməsinə yeni təkan veriləcəkdir.

## Ədəbiyyat

1. Əliyev A., Şəkərəliyev A., Dadaşov İ., Dünya iqtisadiyyatı: Müasir dövrün problemləri, Bakı, İqtisad Universitetinin Nəşriyyatı, 2003.
2. Azərbaycan Respublikasının Statistika Komitəsinin məlumatları, Bakı, 2016.